# BSU-da ümummilli lider Heydər Əliyevin anım mərasimi





**Dekabrın 12-də Bakı Slavyan Universitetində (BSU) ulu öndər Heydər Əliyevin vəfatının 15-ci ildönümünə həsr olunmuş anım mərasimi keçirildi.**

Mərasim iştirakçıları Ümummilli Liderin BSU-nun foyesində yerləşən büstünün önünə əklil və gül dəstələri düzdülər.

Tədbir rəsmi hissə ilə davam etdi. Rəsmi hissənin əvvəlində Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi, Ulu Öndərin xatirəsi bir dəqiqəlik sükutla yad olundu.






Tədbiri giriş sözü ilə açan BSU-nun rektoru, professor Nurlana Əliyeva Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı əvəzsiz xidmətlərindən danışdı. Bildirdi ki, ulu öndər Heydər Əliyev ölkə həyatının bütün sahələrinə, o cümlədən elmin, təhsilin inkişafına böyük diqqət yetirirdi. N.Əliyeva Ümummilli Liderin Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi, xalqın məhəbbətini qazanan öndər kimi qaldığını diqqətə çatdırdı: “Ulu Öndər hər zaman bütün dünyada böyük hörmətlə qarşılanıb. Hər bir azərbaycanlı bunu yüksək qiymətləndirməli, onun qoyduğu yolla getmək üçün əlindən gələni etməlidir. O, Azərbaycanla fəxr edirdi. Bu mənada o, xalqımızın milli iftixarı, ürəklərimizdə özünə yer tapan ümummilli liderimiz, güvənc yerimizdir. Azərbaycan xalqı çox xoşbəxtdir ki, onun Heydər Əliyev kimi dahi şəxsiyyəti olub”.

Professor onu da diqqətə çatdırdı ki, ulu öndər Heydər Əliyev xalqımızın təkidli tələbi ilə Azərbaycanın ən çətin, ən gərgin illərində hakimiyyətə gələrək bu çətinlikləri öz qətiyyəti, praqmatik siyasəti ilə dəf etməyi bacardı və ölkəmizi inkişaf yoluna çıxardı. Onun sözlərinə görə, Heydər Əliyevin həmin illərdə görmüş olduğu böyük işlərdən biri də YAP-ın yaradılması idi: “YAP o dövrdə ölkənin istinadgahı, dayağı kimi, özünü Azərbaycanın xilasına həsr etməyi bacaran insanların bir araya gəldiyi qurum kimi yaranmışdı. YAP-ın təsis olunması və Ulu Öndərin rəhbərliyi altında ölkəmizin böyük ziyalılarının bir araya gəlməsi çox mürəkkəb durumda olan dövlətimizin gələcəyi baxımından da mühüm hadisə idi. YAP yaranandan dərhal sonra bütün fəallarımız, ziyalılarımız, cəmiyyətin hər təbəqəsindən olan insanlar, o cümlədən qadınlarımız mütəşəkkil şəkildə partiyanın sıralarına gəldilər. Mən Ümummilli Liderimizin anım günündə onun ruhu qarşısında baş əyir və düşünürəm ki, bizim bugünkü inkişafımız, Azərbaycanın tərəqqisi məhz Ulu Öndərin ideyaları əsasında baş tutur”.



Müstəqil Azərbaycanın tarix boyu çox çətin sınaqlar qarşısında qaldığını xatırladan N.Əliyeva qeyd etdi ki, müstəqilliyimizin qorunması və möhkəmlənməsi Ümummilli Liderin xidmətləri sayəsində mümkün olub. Rektor Ulu Öndərin Azərbaycan dilinin təbliği və inkişafı istiqamətindəki xidmətlərindən də danışdı. O, bu gün Azərbaycan dilinin hərtərəfli inkişafının, dövlət dilinə çevrilməsinin, diplomatiya aləminə yol açmasının, dünyanın ən mötəbər tribunalarından eşidilməsinin ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan dil siyasəti ilə bağlı olduğunu vurğuladı.

Bu gün Ulu Öndərin məqsədyönlü siyasətini Prezident İlham Əliyevin layiqincə davam etdirdiyini, müstəqil Azərbaycanın daha da güclənməsi istiqamətində mühüm işlər gördüyünü deyən N.Əliyeva dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində Azərbaycanın bütün sahələrdə mühüm nailiyyətlər qazandığını diqqətə çatdırdı. N.Əliyeva dahi şəxsiyyətin, nəhəng dövlət xadiminin bünövrəsini qoyduğu xarici siyasətin uğurla davam etdirilməsində ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın mühüm rolu olduğunu, onun Azərbaycanın ən ağrılı problemi olan Dağlıq Qarabağ münaqişəsinin, azərbaycanlılara qarşı edilən genosidin dünyaya çatdırılmasında və təbliğində böyük işlər gördüyünü diqqətə çatdırdı.

Tədbirin davamında YAP Gənclər Birliyinin (GB) BSU üzrə sədri Şirin Hüseynzadə “Heydər Əliyev və gənclər siyasəti” mövzusunda çıxış etdi. Ş.Hüseynzadə çıxışında bu gün dövlətçiliyin inkişafında gənclərə xüsusi önəm verildiyini qeyd etdi. O, ulu öndər Heydər Əliyevin müəyyən etdiyi gənclər siyasətinin ölkənin ictimai həyatında, humanitar, idman və digər sahələrdə Azərbaycan Respublikası Prezidenti tərəfindən uğurla həyata keçirildiyini bildirdi. Qeyd olundu ki, gənclərimizin bir fərd, əsl Azərbaycan vətəndaşı kimi formalaşmasında ümummilli lider Heydər Əliyevin danılmaz əməyi, misilsiz xidmətləri var. Ulu Öndərin zəngin və möhtəşəm dövlətçilik fəaliyyətində gənclər siyasəti hər zaman xüsusi yer tuturdu. Hələ keçən əsrin 70-80-ci illərində müdrik rəhbərin göstərişi ilə yüzlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin Moskva da daxil olmaqla aparıcı ali məktəblərinə müxtəlif ixtisaslar üzrə təhsil almağa göndərildi. Təkcə bir faktı xatırlatmaq kifayətdir ki, 1970-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə 1500-dən artıq azərbaycanlı gənc bu qayğı ilə əhatə olundu.





1970-1985-ci illərdə Sovet İttifaqının tanınmış 170 ali təhsil ocağında oxuyan azərbaycanlı gənclərin sayı 3500-ə çatdırıldı. Məhz həmin gənclər sonradan ali təhsilli mütəxəssis kimi ölkəmizdə iqtisadiyyatın müxtəlif sahələrində bacarıqlı kadr kimi fəaliyyətə başladılar. Hər il təhsil almaq üçün Azərbaycandan kənara 800 tələbə yola salınırdı. Gənclər Sankt-Peterburqda, Kiyevdə, Xarkovda, Minskdə təhsil alırdılar. Onlar Azərbaycan Respublikasının daxil olacağı yeni dövrün problemlərini həll etməli idilər.

Ulu öndər Heydər Əliyev ölkədə gənclər siyasətinin düzgün aparılmasını çox vacib və önəmli hesab edərək söyləyirdi: “Mənim üçün ən əziz nemət Azərbaycanın uşaqlarıdır, Azərbaycanın gəncləridir. Çünki Azərbaycan Prezidenti kimi mən də bu gün Azərbaycanın böyük gələcəyi haqqında düşünürəm. Azərbaycanın gələcəyi isə Azərbaycanın gənclərindən və uşaqlarından asılıdır”.

Sonra BSU-nun I kurs tələbəsi Sevinc Süleymanova “Ulu Öndər” şeirini səsləndirdi.

BSU-nun II kurs tələbəsi Mirpaşa İlyasov “Xalqın lideri”, I kurs tələbəsi Ayxan Əzizov “Dünya liderləri Heydər Əliyev haqqında” mövzusunda məruzələrlə çıxış etdilər.

Tədbirin davamında ulu öndər Heydər Əliyevin həyat yoluna həsr olunmuş “Lider” filminin nümayişi oldu.

Sonda BSU-nun professor-müəllim heyəti və tələbələrindən ibarət kontingent Fəxri xiyabana gedərək ulu öndər Heydər Əliyevin məzarı önünə gül dəstələri düzdülər.

**Şəfiqə Dadaşova,**
**Vüsal Cahanov, (foto)**
***“İki sahil”***